Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin 27 fevral 2023-cü il tarixli 2317040100258200 nömrəli əmri ilə təsdiq edilmişdir

**“Dövlət vergi orqanlarında kommersiya qurumlarının, publik hüquqi şəxslərin dövlət qeydiyyatının və vergi ödəyicilərinin uçotunun ləğv edilməsi” Qaydaları**

**1. Ümumi müddəalar**

1.1. “Dövlət vergi orqanlarında kommersiya qurumlarının, publik hüquqi şəxslərin dövlət qeydiyyatının və vergi ödəyicilərinin uçotunun ləğv edilməsi Qaydaları” (bundan sonra – Qaydalar) kommersiya qurumlarının, publik hüquqi şəxslərin dövlət qeydiyyatının və vergi ödəyicilərinin uçotunun ləğv edilməsi prosesində Azərbaycan Respublikası Mülki Məcəlləsinin, Azərbaycan Respublikası Vergi Məcəlləsinin, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Publik hüquqi şəxslər haqqında” və “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikası qanunlarının və onlara uyğun olaraq qəbul edilmiş digər normativ aktların tələbləri nəzərə alınmaqla yerinə yetirilən hərəkətləri müəyyən etmək məqsədilə hazırlanmışdır.

1.2. Bu Qaydalar kommersiya qurumlarına, publik hüquqi şəxslərə və vergi ödəyicilərinə münasibətdə həyata keçirilən aşağıdakı proseslər zamanı tətbiq olunur:

1.2.1. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış kommersiya hüquqi şəxslərin qeydiyyatının ləğv edilməsi və vergi uçotundan çıxarılması;

1.2.2. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış xarici kommersiya hüquqi şəxslərin Azərbaycan Respublikasındakı filial və nümayəndəliklərinin qeydiyyatının ləğv edilməsi və vergi uçotundan çıxarılması;

1.2.3. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış qeyri-kommersiya hüquqi şəxslərin vergi uçotundan çıxarılması;

1.2.4. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış xarici qeyri-kommersiya hüquqi şəxslərin filial və nümayəndəliklərinin vergi uçotundan çıxarılması;

1.2.5. fiziki şəxslərin vergi uçotundan çıxarılması;

1.2.6. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin ayrıca vergi ödəyicisinin eyniləşdirmə nömrəsi ilə uçota alınmış filiallarının, nümayəndəliklərinin və digər struktur bölmələrinin vergi uçotundan çıxarılması;

1.2.7. Vergi Məcəlləsinin 13.2.5.3-cü maddəsinə müvafiq olaraq idarəetmə yerinə görə rezident sayılan hüquqi şəxsin və Vergi Məcəlləsinin 33.8-ci maddəsində göstərilən xarici dövlətin rezidentinin daimi nümayəndəlik yaratmayan bölməsinin vergi uçotundan çıxarılması;

1.2.8. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış publik hüquqi şəxslərin qeydiyyatının ləğv edilməsi və vergi uçotundan çıxarılması.

1.3. Bu Qaydaların müddəaları Vergi Məcəlləsinin 33.8-1-ci maddəsində qeyd edilən qeyri-rezidentlərə şamil edilmir.

1.4. Bu Qaydaların məqsədləri üçün istifadə edilən anlayışlar aşağıdakılardır:

1.4.1. **VÖEN** – vergi ödəyicilərinin vergi orqanlarında qeydiyyata (uçota) alındığı zaman verilən, 10 rəqəmdən ibarət olan vergi ödəyicisinin eyniləşdirmə nömrəsidir (2008-ci ildən etibarən kommersiya hüquqi şəxslərin VÖEN-i onların dövlət qeydiyyat nömrəsidir);

1.4.2. **hüquqi şəxs**- qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır;

1.4.3. **xarici hüquqi şəxs**- Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılmış hüquqi şəxsdir;

1.4.4. **kommersiya qurumu**- Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçmiş kommersiya hüquqi şəxslər və xarici kommersiya hüquqi şəxslərin filial və nümayəndəlikləridir;

1.4.5. **publik hüquqi şəxs** – dövlət və bələdiyyə adından yaradılan, ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır;

1.4.6. **hüquqi şəxsin bölməsi-** hüquqi şəxsin vergi orqanında ayrıca VÖEN-lə uçota alınmış filialı, nümayəndəliyi və ya digər bölməsidir;

1.4.7. **fiziki şəxs-** qanunvericiliyə uyğun olaraq uçota dayanmış Azərbaycan Respublikasının vətəndaşı, habelə əcnəbi və vətəndaşlığı olmayan şəxsdir;

1.4.8. **vergi ödəyicisi** - Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən şəxsdir;

1.4.9. **hüquqi şəxsin ləğv edilməsi-** hüquqi şəxsin hüquq və vəzifələrinin hüquqi varislik qaydasında başqa şəxslərə keçmədən onun mövcudluğuna və fəaliyyətinə xitam verilməsidir;

1.4.10. **hüquqi şəxsin yenidən təşkili-** hüquqi şəxsin birləşməsi, qoşulması, ayrılması, bölünməsi, çevrilməsidir;

1.4.11. **ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici)-** ləğv edilməsi barədə qərarı verilmiş hüquqi şəxsin təsisçilərinin (iştirakçılarının) və ya nizamnaməsi ilə buna vəkil edilmiş orqanın təyin etdiyi, təyin edildiyi andan hüquqi şəxslərin işlərini idarə etmək səlahiyyətləri ona keçən və ləğv edilən hüquqi şəxsin adından məhkəmədə çıxış edən komissiyadır (təsviyəçidir, ləğvedicidir);

1.4.12. **hüquqi şəxslərin qeydiyyat orqanı-** kommersiya qurumlarının və publik hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə bilavasitə tabe olan müvafiq vergi orqanları və Naxçıvan MR Dövlət Vergi Xidməti, qeyri-kommersiya qurumlarının dövlət qeydiyyatını həyata keçirən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan MR Ədliyyə Nazirliyi, dini qurumların dövlət qeydiyyatını həyata keçirən Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsidir;

1.4.13. **hüquqi şəxslərin dövlət reyestri-** Azərbaycan Respublikasının ərazisində qeydiyyata alınmış hüquqi şəxslər, xarici hüquqi şəxslərin nümayəndəlik və ya filialları, eləcə də Azərbaycan Respublikasının ərazisində dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin nümayəndəlik və filialları və digər qurumlar barəsində məlumatlar (qeydlər) məcmusudur;

1.4.14. **aralıq ləğvetmə balansı-** özündə ən azı ləğv edilən hüquqi şəxsin əmlakının tərkibi, kreditorların tələblərinin və debitor borcların siyahısını əks etdirən balansdır;

1.4.15. **ləğvetmə balansı-** bütün məlum olan kreditorlarla hesablaşmalar başa çatdıqdan sonra ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) tərəfindən tərtib edilən və hüquqi şəxsin iştirakçıları və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı tərəfindən təsdiq edilən balansdır;

1.4.16. **kameral vergi yoxlaması-** vergi orqanı tərəfindən yerlərə getmədən vergilərin hesablanmasını və ödənilməsini özündə əks etdirən və vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan sənədlər və mənbəyi məlum olan məlumatlar əsasında keçirilən yoxlamadır;

1.4.17. **son səyyar vergi yoxlaması-** hüquqi şəxsin ləğv edilməsi və ya yenidən təşkil edilməsi və fiziki şəxsin sahibkarlıq fəaliyyətinə xitam verilməsi barədə müraciət daxil olduqda vergi ödəyicisinin öhdəliklərinin və onların yerinə yetirilməsi vəziyyətinin müəyyənləşdirilməsi məqsədilə vergi orqanı tərəfindən aparılan səyyar yoxlamasıdır;

1.4.18. **uçot vahidi-** vergi ödəyicilərinin filialı, nümayəndəliyi və ya digər təsərrüfat subyekti (obyekti), nəzarət-kassa aparatı, pos terminalı, ƏDV qeydiyyatı və kredit təşkilatlarında və poçt rabitəsinin milli operatorunda (onların filiallarında və şöbələrində) (bundan sonra-bank əməliyyatı aparan şəxslərdə) olan hesabları;

1.4.19. **rəsmi bəyanat**- bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün hüquqi şəxsin ödəmə qabiliyyətinin olmasını (aktiv və passivlərin vəziyyəti barədə) təsdiq edən və hüquqi şəxsin icra orqanı tərəfindən qəbul edilən rəsmi sənəddir;

1.4.20. **qalıq əmlakın iştirakçılar arasında bölünməsi planını əks etdirən hesabat** – özündə qalıq əmlakın hüquqi şəxsin iştirakçıları arasında bölgüsünə dair məlumatları əks etdirən və hüquqi şəxsin iştirakçıları və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı tərəfindən təsdiq edilən sənəddir;

1.4.21. **qalıq əmlakın iştirakçılara təqdim edilməsini təsdiq edən sənəd**- hüquqi şəxsin qalıq əmlakının iştirakçılar arasında bölünməsi planını əks etdirən hesabata uyğun olaraq qalıq əmlakın iştirakçılara təqdim edilməsini təsdiq edən sənəddir.

## 2. Kommersiya qurumlarının, publik hüquqi şəxslərin dövlət qeydiyyatının və vergi ödəyicilərinin uçotunun ləğv edilməsi xüsusiyyətləri

### 2.1. Kommersiya qurumları üzrə

2.1.1. Kommersiya hüquqi şəxsin ləğv edilməsi barədə qərar onun iştirakçıları və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı tərəfindən qəbul edilir. Hüquqi şəxsin ləğv edilməsi aşağıdakı hallarda baş verə bilər:

2.1.1.1. iştirakçılarının və hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə könüllü qaydada;

2.1.1.2. məhkəmənin qərarı ilə;

2.1.1.3. müflis olma nəticəsində.

2.1.2. Kommersiya qurumu məhkəmə qərarı ilə ləğv edildiyi halda, həmin qərarla ləğvetmə vəzifəsi onun təsisçilərinə (iştirakçılarına) və ya hüquqi şəxsin nizamnamə ilə buna vəkil edilmiş orqanına həvalə edilə bilər.

2.1.3. Ləğv edilən hüquqi şəxsin əmlakının dəyəri kreditorların tələblərinin ödənilməsi üçün yetərli deyildirsə, o yalnız müflis olma nəticəsində ləğv edilə bilər.

2.1.4. Kommersiya hüquqi şəxsin icra orqanı ləğvetmə qərarından ən çoxu 20 gün əvvəl bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanat qəbul edir və ya belə bəyanatın qəbul edilməsinin mümkünsüz olduğunu bildirir. İcra orqanı bəyanatın qəbul edilməsinin mümkünsüzlüyünü bildirdikdə, iştirakçıların ümumi yığıncağı hüquqi şəxsin bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olub-olmamasını təsdiq etmək üçün müstəqil auditor cəlb edə bilər. Müstəqil auditor hüquqi şəxsin ödəmə qabiliyyətinin olmasını öz rəyi ilə təsdiq etdikdə, həmin rəy bu maddə ilə müəyyən edilmiş bəyanata bərabər tutulur. Kommersiya hüquqi şəxsin təsisçiləri və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı hüquqi şəxsin ləğvi və

ya yenidən təşkili haqqında qərarla ləğvetmə komissiyasını (təsviyəçini, ləğvedicini) təyin edir. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyəti ona keçir. Ləğvetmə komissiyasının üzvləri (təsviyəçi, ləğvedici) təyin olunduqları qaydada geri çağırıla və ya başqa şəxslərlə əvəz edilə bilər.

2.1.5. Hüquqi şəxsin ləğv edilməsi haqqında qərar qəbul etmiş hüquqi şəxsin iştirakçıları və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı ləğv barədə qərar qəbul edildiyi tarixdən yalnız ləğvetmə prosesi çərçivəsində fəaliyyət göstərir.

2.1.6. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) təyin olunduğu gündən sonra 10 gün müddətində Azərbaycan Respublikasında hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatların dərc edildiyi mətbu nəşrdə hüquqi şəxsin ləğv edilməsi və kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatı dərc etdirir. Kreditorların tələblərinin irəli sürülməsi müddəti ləğvetmə haqqında ilk məlumatın dərc edildiyi gündən etibarən 60 gündən az ola bilməz.

2.1.7. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) təyin olunduğu gündən sonra 15 gün müddətində aşağıdakı sənədləri qeydiyyat orqanına təqdim etməlidir:

2.1.7.1. “Qurumun dövlət qeydiyyatından (vergi uçotundan) çıxarılması haqqında” ərizə;

2.1.7.2. ləğvetmə barədə qərar;

2.1.7.3. ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanat;

2.1.7.4. hüquqi şəxsin ləğv edilməsi və kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın mətbu nəşrdə dərc olunmasını təsdiq edən sənəd;

2.1.7.5. möhür;

2.1.7.6. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin idarəçiliyində olmayan, lakin dövlətin payı olan hüquqi şəxslərə dair Əmlak Məsələləri Dövlət Xidməti qismində İqtisadiyyat Nazirliyinin rəyi;

2.1.7.7. aktivlərinin ümumi dəyəri minimum əmək haqqı məbləğinin 50 min mislindən artıq dövlət və bələdiyyə müəssisələri olduqda (məhkəmənin qərarı ilə müəssisələrin ləğv edilməsi halları istisna olunmaqla) Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində İqtisadiyyat Nazirliyinin razılığı;

2.1.7.8. səhmdar cəmiyyəti ilə bağlı müraciət daxil olduqda əlavə olaraq səhmdar cəmiyyətinin ümumi yığıncağının çağırılması barədə KİV-də verilən elan (QSC istisna olmaqla);

2.1.7.9. səhmdarlara ümumi yığıncağın çağırılması barədə bildirişin çatdırılmasını təsdiq edən sənəd;

2.1.7.10. səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının keçirilmə tarixinə yaxın tarixə verilmiş “Qiymətli kağız sahiblərinin reyestrindən çıxarış”ın əsli və ya notariat qaydasında təsdiq edilmiş surəti;

2.1.7.11. təsviyəçinin (ləğvedicinin, ləğvetmə komissiyasının üzvlərinin) şəxsiyyətini təsdiq edən sənədin surəti.

2.1.8. Ləğv edilən kommersiya qurumunun möhürü itmişdirsə, bu barədə mətbuatda dərc edilmiş elan və onun tapılmaması haqqında Daxili İşlər Nazirliyi tərəfindən verilmiş arayış təqdim edilməlidir.

2.1.9. Yuxarıda qeyd olunan sənədlər qanunvericiliyin tələblərinə zidd olmadıqda qeydiyyat orqanı 5 gün müddətində hüquqi şəxsin ləğvetmə prosesində olması barədə qeydi hüquqi şəxslərin dövlət reyestrinə daxil edir, ləğvetmə komissiyasının üzvlərini və ya təsviyəçini (ləğvedicini) qanuni təmsilçi kimi qeyd edib reyestrdən çıxarışı təqdim edir. Bundan sonra hüquqi şəxs tərəfindən sənədlərin tərtibi zamanı üzərində "ləğv prosesindədir" yazılmış möhürdən istifadə olunur və bütün sənədlərdə onun adından sonra "ləğv prosesindədir" sözləri əlavə edilir.

2.1.10. Kreditorların tələblərinin irəli sürülməsi müddəti qurtardıqdan sonra ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) 10 gün müddətində aralıq ləğvetmə balansını tərtib edərək təsdiq edir və hüquqi şəxsin təsisçilərinə göndərir.

2.1.11. Bütün məlum olan kreditorlarla hesablaşmalar başa çatdıqdan sonra 5 gün müddətində ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) ləğvetmə balansını və qalıq əmlakın iştirakçılar arasında bölünməsi planını əks etdirən hesabatı tərtib edir. Ləğvetmə balansı və hesabat hüquqi şəxsin iştirakçıları və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı tərəfindən təsdiq edilir. Ləğvetmə balansı təsdiq edildikdən sonra 10 gün ərzində ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) qalıq əmlakın təsdiq edilmiş bölünmə planına uyğun olaraq hüquqi şəxsin iştirakçılarına təqdim edilməsini təmin edir. Bu məqsədlə qalıq əmlakın hüquqi şəxsin iştirakçılarına təqdim edilməsi barədə müvafiq sənəd tərtib edilir. Bu sənəd iştirakçılarla son hesablaşmanın aparıldığını təsdiq edən akt, iştirakçıya ayrılan məbləğin onun adına bank əməliyyatı aparan şəxslərdə açılmış hesaba ödənildiyini təsdiq edən hesabdan çıxarış, ödəniş sərəncamı və digər ödəniş sənədi formasında ola bilər.

2.1.12. Qeydiyyat orqanı kommersiya hüquqi şəxsinin ləğv edilməsi prosesi zamanı aşağıda göstərilən müddətlərə əməl olunmasına nəzarəti təmin edir:

2.1.12.1. bütün kreditorlarının tələblərini qarşılamaq üçün ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanat kommersiya hüquqi şəxsin ləğvetmə qərarından ən çoxu 20 gün əvvəl qəbul edilə bilər. Bu müddət pozulduqda kommersiya hüquqi şəxsin ləğv ərizəsi qeydiyyat orqanı tərəfindən icraya qəbul edilmir və zərurət yarandıqda ərizənin qəbul edilməsindən imtina barədə qərar Qaydaların 6 və 10 №li Əlavələrinə uyğun olaraq tərtib edilərək ləğvetmə komissiyasına (təsviyəçiyə, ləğvediciyə) təqdim olunur;

2.1.12.2. ləğvetmə prosesinin ümumi müddəti hüquqi şəxsin ləğvetmə prosesində olması barədə məlumatın hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan etibarən bir

ildən çox olmamalıdır. Həmin müddətin keçməsi ləğvetmə prosesinin yenidən başlamasına səbəb olur. Bu halda hüquqi şəxslərin dövlət reyestrindən hüquqi şəxsin ləğvetmə prosesində olması barədə qeyd çıxarılmaqla, təqdim edilmiş sənədlər Qaydaların 7 və 11 №li Əlavələrində verilmiş formada bildirişlə ləğvetmə komissiyasına (təsviyəçiyə, ləğvediciyə) təqdim olunur.

2.1.13. 2008-ci ilədək Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış, lakin vergi uçotunda olmayan kommersiya hüquqi şəxs tərəfindən ləğvetmə barədə müraciət edildikdə, qeydiyyat orqanı arxiv sənədlərinə əsasən həmin hüquqi şəxsə VÖEN verdikdən sonra müraciətin rəsmiləşdirilməsini və bu Qaydalara uyğun olaraq icra edilməsini təmin edir.

2.1.14. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış xarici kommersiya hüquqi şəxslərin filial və nümayəndəliklərinin qeydiyyatının ləğv edilməsi kommersiya hüquqi şəxslərin ləğv edilməsi qaydasında həyata keçirilir.

2.1.15. Hüquqi şəxsin yenidən təşkili onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə həyata keçirilir.

2.1.16. Yenidən təşkil zamanı:

2.1.16.1. hüquqi şəxslər birləşdikdə onlardan hər birinin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yeni yaranmış hüquqi şəxsə keçir, bu zaman birləşən hüquqi şəxslərin dövlət qeydiyyatı ləğv edilməli və onların hüquq və vəzifələri yeni yaranan hüquqi şəxsə keçməlidir;

2.1.16.2. hüquqi şəxs başqa hüquqi şəxsin ona qoşulması şəklində yenidən təşkil edilərkən qoşulan hüquqi şəxsin fəaliyyətinə xitam verilməsi haqqında qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan birinci hüquqi şəxs yenidən təşkil edilmiş sayılır. Qoşulan hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yenidən təşkil edilmiş hüquqi şəxsə keçir. Bu zaman qoşulan hüquqi şəxsin dövlət qeydiyyatı ləğv edilməli və onun vergi öhdəlikləri yenidən təşkil edilmiş hüquqi şəxsə keçməlidir;

2.1.16.3. hüquqi şəxs onun bölünməsi şəklində yenidən təşkili nəticəsində yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alındığı andan yenidən təşkil edilmiş sayılır. Bu halda bölünən hüquqi şəxsin dövlət qeydiyyatı ləğv edilməli və onun hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq yeni yaranmış hüquqi şəxslərin hər birinə keçməlidir. Bölünmə balansı bölünən hüquqi şəxsin hüquqi varislərinin payını müəyyənləşdirməyə imkan vermədikdə və ya hər hansı hüquqi varis tərəfindən vergi öhdəliklərinin tam həcmdə yerinə yetirilməsi imkanını aradan qaldırdıqda, yeni yaranan hüquqi şəxslər vergi öhdəliklərinin və ya bu öhdəliklərin müvafiq hissəsinin yerinə yetirilməsi üçün birgə məsuliyyət daşıyırlar;

2.1.16.4. hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxsin ayrılması zamanı, hüquqi şəxs yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alındığı andan yenidən təşkil edilmiş sayılır. Bu halda ayrılma şəklində yenidən təşkil olunan hüquqi şəxsin hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq yeni yaranan hüquqi şəxslərin hər birinə

keçməlidir. Ayrılma şəklində yenidən təşkil olunan hüquqi şəxsin dövlət qeydiyyatı ləğv edilmir;

2.1.16.5. bir növdən olan hüquqi şəxs digər növdən olan hüquqi şəxsə çevrildikdə (təşkilati-hüquqi formanın dəyişməsi) yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yeni yaranmış hüquqi şəxsə keçir. Bu zaman hüquqi şəxsin dövlət qeydiyyatı ləğv edilmir, onun dövlət reyestri məlumatlarına yenidən təşkil edilmə nəticəsində dəyişdirilmiş rekvizitlər daxil edilir.

2.1.17. Təhvil aktında və bölünmə balansında yenidən təşkil edilmiş hüquqi şəxsin bütün kreditorları və borcluları barəsində öhdəliklərinin hamısı, o cümlədən dövlət büdcəsi qarşısında öhdəliklər üzrə hüquqi varislik haqqında müddəalar olmalıdır. Təhvil aktı və bölünmə balansı hüquqi şəxsin yenidən təşkili haqqında qərar qəbul etmiş onun təsisçiləri (iştirakçıları) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı tərəfindən təsdiq edilir.

2.1.18. Yenidən təşkil nəticəsində hüquqi varisliyi fəaliyyətinə xitam verilmədən yenidən təşkil olunan və ya yeni yaranan hüquqi şəxsə (şəxslərə) keçərək ləğv olunan hüquqi şəxs (şəxslər) "Qurumun dövlət qeydiyyatından (vergi uçotundan) çıxarılması haqqında" ərizə ilə müvafiq dövlət qeydiyyat orqanına müraciət etməlidir. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

2.1.18.1. yenidən təşkil nəticəsində ləğvetmə qərarı;

2.1.18.2. qurumun dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin və nizamnaməsinin əsli (təsis sənədləri elektron kabinetə göndərilənlər istisna olmaqla);

2.1.18.3. təhvil aktı və (və ya) bölünmə balansı;

2.1.18.4. yenidən təşkil barədə məlumatın mətbuatda dərc olunmasını təsdiq edən sənəd;

2.1.18.5. 2008-ci il 1 yanvar tarixinədək dövlət qeydiyyatına alınmış kommersiya qurumu vergi uçotunda dayanmışdırsa, VÖEN şəhadətnaməsi;

2.1.18.6. möhür;

2.1.18.7. Azərbaycan Respublikasının Mərkəzi Bankının (Milli Depozit Mərkəzi) səhmlərin dövriyyədən çıxarılması barədə arayışı;

2.1.18.8. təsərrüfat subyektlərinin birləşdirilməsi və qovuşması zamanı aşağıdakı hallarda Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində İqtisadiyyat Nazirliyinin razılığı:

2.1.18.8.1. əgər bu, müvafiq əmtəə bazarında payı 35%-dən çox olan təsərrüfat subyektlərinin yaranması ilə nəticələnərsə;

2.1.18.8.2. aktivlərinin ümumi dəyəri minimum əmək haqqı məbləğinin 75 min mislindən artıq olan təsərrüfat subyektlərinin qovuşması və birləşməsi;

2.1.18.8.3. aktivlərinin ümumi dəyəri minimum əmək haqqı məbləğinin 50 min mislindən artıq dövlət və bələdiyyə müəssisələrinin bölünməsi (əgər bu, müvafiq əmtəə bazarında payı 35%-dən çox olan təsərrüfat subyektlərinin yaranması ilə nəticələnərsə).

2.1.19. Kommersiya hüquqi şəxsi məhkəmə yolu ilə yenidən təşkil edilə bilər. Bu halda məhkəmənin qanuni qüvvəyə minmiş qərarı və 2.1.18-ci yarımbənddə nəzərdə tutulan sənədlər təqdim edilməlidir.

2.1.20. Yenidən təşkil nəticəsində yeni yaranan və yaxud fəaliyyətinə xitam verilmədən yenidən təşkil edilən hüquqi şəxs (şəxslər) ləğv edilən hüquqi şəxslə eyni qeydiyyat orqanının xidmət göstərdiyi ərazilərdə yerləşirlərsə, bu halda yeni yaranan hüquqi şəxsin (şəxslərin) qeydiyyatı və yaxud fəaliyyətinə xitam verilmədən yenidən təşkil olunan hüquqi şəxsin (şəxslərin) qeydiyyat məlumatlarında baş verən dəyişikliklərin qeydiyyatı barədə ərizələr həmin qeydiyyat orqanına ləğvetmə ərizəsi ilə birlikdə təqdim edilməlidir.

2.1.21. Ləğv edilən hüquqi şəxsin qeydiyyat orqanı yenidən təşkil olunan və ya yeni yaranan hüquqi şəxslərin qeydiyyat orqanından fərqlidirsə, bu halda VÖEN ləğv edilmədən ləğvetmə ərizəsi icra edildikdən sonra ləğv edilən hüquqi şəxsin qeydiyyat qovluğu hüquqi varislik qaydasında onun hüquq və vəzifələrini qəbul edən hüquqi şəxsin qeydiyyat orqanına göndərilir.

**2.2. Qeyri-kommersiya qurumları üzrə**

2.2.1. Qeyri-kommersiya hüquqi şəxsin, xarici qeyri-kommersiya hüquqi şəxsin Azərbaycan Respublikasının ərazisindəki filial və ya nümayəndəliyinin vergi uçotundan çıxarılması üçün vergi orqanına müraciət “Qurumun dövlət qeydiyyatından (vergi uçotundan) çıxarılması haqqında” ərizə forması ilə edilir. Bu zaman təqdim edilən ərizəyə qurumun ləğvetmə mərhələsində olduğunu təsdiq edən müvafiq qeydiyyat orqanının verdiyi rəsmi məlumat (reyestrdən çıxarış), qurumun ləğv edilməsi barədə təsisçilərin qərarı və vergi ödəyicisinin uçota alınması barədə şəhadətnaməsinin əsli əlavə edilir.

**2.3. Rezident hüquqi şəxsin filialı, nümayəndəliyi və ya digər bölməsi üzrə**

2.3.1. Rezident hüquqi şəxsin filialının, nümayəndəliyinin və ya digər bölməsinin vergi uçotundan çıxarılması aşağıdakı hallarda həyata keçirilir:

2.3.1.1. rezident hüquqi şəxsin filialının, nümayəndəliyin və digər bölməsinin fəaliyyətinə xitam verilməsi barədə rezident hüquqi şəxsin qanunvericiliyə uyğun olaraq qəbul edilmiş qərarı olduqda;

2.3.1.2. rezident hüquqi şəxs ləğv olunduqda;

2.3.1.3. qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

2.3.2. Rezident hüquqi şəxs ləğv edilən filialının, nümayəndəliyinin və ya digər bölməsinin öhdəliklərinə görə məsuliyyət daşıyır.

2.3.3. Rezident hüquqi şəxslərin filialının, nümayəndəliyinin və ya digər bölməsinin vergi uçotundan çıxarılması üçün vergi orqanına müraciət "Qurumun dövlət qeydiyyatından (vergi uçotundan) çıxarılması haqqında" ərizə forması ilə edilir. Bu zaman təqdim edilən ərizəyə filialın, nümayəndəliyin və ya digər bölmənin ləğv edilməsi barədə rezident hüquqi şəxsin qərarı və vergi ödəyicisinin uçota alınması barədə şəhadətnaməsinin əsli əlavə edilir.

**2.4. Vergi Məcəlləsinin 33.8-ci maddəsinə əsasən vergi uçotuna dayanmış idarəetmə yerinə görə rezident sayılan hüquqi şəxs və ya xarici dövlətin rezidentinin daimi nümayəndəlik yaratmayan bölməsi üzrə**

2.4.1. Vergi Məcəlləsinin 33.8-ci maddəsinə əsasən vergi uçotuna dayanmış idarəetmə yerinə görə rezident sayılan hüquqi şəxsin və ya xarici dövlətin rezidentinin daimi nümayəndəlik yaratmayan bölməsinin vergi uçotundan çıxarılması aşağıdakı hallarda həyata keçirilir:

2.4.1.1. daimi nümayəndəlik yaratmayan bölmə üzrə:

2.4.1.1.1. xarici dövlətin rezidenti ləğv olunduqda;

2.4.1.1.2. xarici dövlətin rezidentinin daimi nümayəndəlik yaratmayan bölməsinin fəaliyyətinə xitam verilməsi barədə qərarı olduqda;

2.4.1.1.3. daimi nümayəndəlik yaratmayan bölmənin fəaliyyəti daimi nümayəndəlik yaratdıqda.

2.4.1.2. idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxs üzrə:

2.4.1.2.1. idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxs qeydiyyata alındığı dövlətdə ləğv edildikdə;

2.4.1.2.2. idarəetmə yerinə görə rezident sayılan xarici hüquqi şəxsin rezidentliyi dəyişildikdə.

2.4.2. Xarici dövlətin rezidentinin Vergi Məcəlləsinin 33.8-ci maddəsinə əsasən vergi uçotuna dayanmış hüquqi şəxsin və qeyri-rezidentin bölməsinin vergi uçotundan çıxarılması üçün vergi orqanına müraciət "Qurumun dövlət qeydiyyatından (vergi uçotundan) çıxarılması haqqında" ərizə forması ilə edilir. Bu zaman təqdim edilən ərizəyə bölmənin ləğv edilməsi barədə xarici hüquqi şəxsin qərarı və vergi ödəyicisinin uçota alınması barədə şəhadətnaməsinin əsli əlavə edilir.

**2.5. Fiziki şəxslər üzrə**

2.5.1. Vergi Məcəlləsinin 34.7.3-cü maddəsinə əsasən fiziki şəxsin uçotdan çıxarılması aşağıdakı hallarda mümkündür:

2.5.1.1. fiziki şəxsin fəaliyyətinə xitam verildikdə;

2.5.1.2. fiziki şəxs məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada ölmüş, itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayıldıqda;

2.5.1.3. fiziki şəxs vəfat etdikdə;

2.5.2. Fiziki şəxsin uçotunun ləğvi ilə bağlı proseslərə vergi orqanına daxil olmuş aşağıdakı məlumatlar əsasında başlanılır:

2.5.2.1. fiziki şəxsin fəaliyyətinə xitam verildikdə - onun və ya səlahiyyətli nümayəndəsinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən təsdiq edilmiş "Fiziki şəxsin uçotdan çıxarılması haqqında" ərizə formasında müraciəti əsasında;

2.5.2.2. fiziki şəxs ölmüş, itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayıldıqda - məhkəmənin müvafiq qərarı əsasında;

2.5.2.3. fiziki şəxs vəfat etdikdə - ölüm haqqında şəhadətnamə əsasında.

**2.6. Müflisləşmə halında**

2.6.1. Qanunvericiliyə uyğun olaraq müflis elan olunmuş şəxsin dövlət qeydiyyatının ləğv edilməsi və ya vergi uçotundan çıxarılması üçün müflis elan edilmə barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı və ya qanunvericiliyin tələblərinə uyğun olaraq borclu müəssisənin müflis elan olunması barədə kreditorların ilkin yığıncağının qərarı müvafiq qeydiyyat və ya vergi orqanına təqdim edilməlidir.

**2.7. Publik hüquqi şəxslər üzrə**

2.7.1. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış publik hüquqi şəxslərin qeydiyyatının ləğv edilməsi kommersiya hüquqi şəxslərin ləğv edilməsi qaydasında həyata keçirilir.

2.7.2. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış publik hüquqi şəxslərin yenidən təşkili kommersiya hüquqi şəxslərin yenidən təşkil edilməsi qaydasında həyata keçirilir.

2.7.3. Publik hüquqi şəxs müflis elan oluna bilməz.

**3. Dövlət qeydiyyatının ləğv edilməsi və ya vergi uçotundan çıxarılma barədə ərizələrin qəbulu**

3.1. Dövlət qeydiyyatının ləğv edilməsi və ya vergi uçotundan çıxarılma barədə müraciətlər edilən zaman vergi əməkdaşı vergi ödəyicilərinin uçot məlumat bazasında müraciətin edilmə tarixinə qeydiyyatı və ya uçotu ləğv edilən vergi ödəyicisi ilə əlaqəli aşağıdakı məlumatları araşdırır:

3.1.1. qeydiyyatı və ya uçotu ləğv edilən hüquqi şəxsdirsə, onun təsisçiliyi ilə yaradılmış müəssisələrin mövcudluğu;

3.1.2. ləğv olunan vergi ödəyicisinin əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatda olub-olmaması;

3.1.3. vergi ödəyicisinin filialı, nümayəndəliyi və ya digər təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə vergi uçotunda olub-olmaması;

3.1.4. vergi ödəyicisinin uçota alındığı təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə nəzarət-kassa aparatının qeydiyyatda olub-olmaması;

3.1.5. vergi ödəyicisinin uçota alındığı təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə Pos-terminalının qeydiyyatda olub-olmaması;

3.1.6. vergi ödəyicisinin aktiv bank hesablarının olub-olmaması;

3.1.7. vergi ödəyicisinin dövlət büdcəsinə və büdcədənkənar fondlara borcunun olub-olmaması;

3.1.8. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində qüvvədə olan aktiv əmək müqavilələrinin olub-olmaması;

3.1.9. təqdim edilməmiş bəyannamələrin (hesabatların) olub-olmaması;

3.1.10. torpaq mülkiyyətçisi və ailə kəndli təsərrüfatının başçısı kimi vergi orqanında uçotda olub-olmaması.

3.2. Uçot məlumat bazasında qeydiyyatı və ya uçotu ləğv edilən vergi ödəyicisi ilə əlaqəli məlumatlar əldə edildikdə, vergi əməkdaşı müraciət edəni aşağıdakı hərəkətlərin yerinə yetirilməsi zərurəti barədə məlumatlandırmalıdır:

3.2.1. qeydiyyatı və ya uçotu ləğv edilən hüquqi şəxsin təsisçiliyi ilə yaradılmış müəssisələrin qeydiyyat məlumatlarında təsisçi dəyişikliyi aparılması;

3.2.2. ləğv olunan vergi ödəyicisinin əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatının ləğv edilməsi zərurəti ilə əlaqədar "Vergi ödəyicisinin əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyatın ləğv olunmasına dair Ərizə"nin təqdim edilməsi;

3.2.3. vergi ödəyicisinin filialın, nümayəndəliyin və ya digər təsərrüfat subyektinin (obyektin) olduğu yer üzrə uçotdan çıxarılması məqsədilə ərizələrin təqdim edilməsi;

3.2.4. vergi ödəyicisinin uçota alındığı təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə qeydiyyata alınmış nəzarət-kassa aparatlarının qeydiyyatdan çıxarılması üçün ərizələrin təqdim edilməsi;

3.2.5. vergi ödəyicisinin uçota alındığı təsərrüfat subyektinin (obyektinin) olduğu yer üzrə qeydiyyata alınmış Pos-terminalların qeydiyyatdan çıxarılması;

3.2.6. ləğvetmə prosedurlarının yerinə yetirilməsi zamanı hesablaşmaların aparılması üçün istifadə olunacaq bank hesabları istisna olmaqla, vergi ödəyicisinin digər aktiv bank hesablarının bağlanması;

3.2.7. vergi ödəyicisinin dövlət büdcəsinə vergi borcunun ödənilməsi;

3.2.8. təqdim edilməmiş bəyannamələrin (hesabatların) vergi orqanına təqdim edilməsi;

3.2.9. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində qüvvədə olan aktiv əmək müqavilələrinin olub-olmaması.

3.3. Bu Qaydaların 3.1.2-3.1.5-ci, 3.1.9-cu və 3.2.2-3.2.5-ci, 3.2.8-ci yarımbəndləri torpaq mülkiyyətçilərinə və ailə kəndli təsərrüfatlarının başçılarına münasibətdə tətbiq edilmir.

3.4. Dövlət qeydiyyatının ləğv edilməsi və ya vergi uçotundan çıxarılma barədə ərizəni qəbul edən vergi əməkdaşı forması bu Qaydaların 1, 2 və 8 №li əlavələrində verilən müvafiq bildirişi imzalayıb müraciət edənə təqdim edir.

3.5. Ərizənin qəbul edilməsi haqqında bildiriş hazırlanarkən proqram təminatı avtomatik olaraq müraciət edən qurumun və ya fiziki şəxsin müvafiq olaraq ləğv prosesində və yaxud uçotdan çıxarılma prosesində olması barədə məlumatı dövlət reyestrinə daxil edir.

## 4. Dövlət qeydiyyatının ləğv edilməsi və ya vergi uçotundan çıxarılma barədə ərizələrə baxılması işlərinin təşkili

### 4.1. Qeydiyyat və uçot strukturu

4.1.1. Kommersiya qurumunun, publik hüquqi şəxsin ləğv edilməsi və ya vergi ödəyicisinin uçotdan çıxarılması barədə ərizələrə baxılması işlərinin koordinasiyası vergi orqanının qeydiyyat və uçot strukturları tərəfindən aparılır. Qeydiyyat və uçot funksiyaları ayrı-ayrı vergi orqanlarında (Naxçıvan MR Dövlət Vergi Xidməti və Dövlət Vergi Xİdmətinin Milli Gəlirlər Baş İdarəsi) yerinə yetirildikdə kommersiya qurumlarının, publik hüquqi şəxslərin dövlət qeydiyyatının ləğvinə münasibətdə bu işlərin koordinasiyası qeydiyyat strukturları tərəfindən həyata keçirilir. Bu strukturlar həmçinin hüquqi şəxsin ləğvetmə prosesinin ümumi müddətinin bir ildən çox olmamasını nəzarətdə saxlayır və həmin müddətin keçməsi hallarında ləğvetmə prosesinin yenidən başlaması zərurəti barədə ləğvetmə komissiyasını (təsviyəçini, ləğvedicini) məlumatlandırır.

4.1.2. “AVİS”-də kargüzarlıq qeydiyyatından keçmiş qeydiyyat və uçotdan çıxarılma ilə bağlı ərizələr qeydiyyat və uçot strukturunun əməkdaşı tərəfindən icraya qəbul edilir və proqram təminatı vasitəsilə funksional səlahiyyətləri çərçivəsində icra edilmək üçün müvafiq vergi orqanının bəyannamələr, vergi öhdəliklərinin idarə edilməsi işinin təşkilinə nəzarət və audit strukturlarına ötürülür.

4.1.3. Vergi orqanının digər strukturları tərəfindən funksional səlahiyyətləri çərçivəsində ərizə icra edilənədək, qeydiyyat və uçot strukturu məlumat bazasında ləğv edilən (uçotdan çıxarılan) subyektə aid olan aktiv uçot vahidlərinin bağlanması üçün 30 gün müddətində (vergi ödəyicisinin ləğvetmə və ya uçotdan çıxarılma ilə əlaqədar təqdim etdiyi ərizənin vergi orqanına daxil olduğu və ya həmin ərizədə göstərilən ləğv olunma (fəaliyyətinə xitam verilmə) tarixindən) aşağıdakı tədbirləri görür:

4.1.3.1. qeydiyyatı və ya uçotu ləğv edilən şəxsin aktiv uçot vahidlərinin bağlanması üçün təqdim olunmuş ərizələrin icra edilməsi, bu ərizələr təqdim olunmamışdırsa onların alınmasını və icra edilməsini təmin edən tədbirlər həyata keçirir. Bu işlərin yerinə yetirilməsinin təmin edilməsi məqsədilə zərurət yarandıqda aidiyyəti üzrə operativ nəzarət strukturlarına müraciət edilə bilər;

4.1.3.2. ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv edilməsi haqqında ərizənin icrası məqsədilə bəyannamələr strukturunun rəyinin alınması üçün ərizə barədə məlumat proqram təminatı vasitəsilə həmin struktura göndərilir;

4.1.3.3. ləğv edilən hüquqi şəxsin mülkiyyətində daşınmaz əmlakın və nəqliyyat vasitəsinin olması barədə məlumatın əldə edilməsi üçün müvafiq olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinə müraciət edilir. Daşınmaz əmlak və nəqliyyat vasitələri barədə alınmış məlumatlar vergi öhdəliklərinin müəyyən edilməsi baxımından keçirilən yoxlamalar zamanı nəzərə alınır.

4.1.4. Vergi orqanının aidiyyəti strukturları tərəfindən funksional səlahiyyətləri çərçivəsində ərizə ilə bağlı prosedurlar icra edildikdən sonra:

4.1.4.1. ləğv edilən şəxsin aktiv bank hesablarının bağlanılması üçün məktub hazırlanır və müvafiq bank əməliyyatı aparan şəxslərə göndərilir;

4.1.4.2.vergi uçotundan çıxarılan qurum qeyri-kommersiya hüquqi şəxsdirsə, onun ləğv edilməsi ilə əlaqədar müvafiq dövlət qeydiyyatı orqanına bu Qaydaların 3 №li əlavəsində göstərilən formada məktub göndərilir;

4.1.4.3. uçot vahidlərinin ləğvi ilə əlaqədar təhvil alınmış sənədlər vergi iş qovluğuna tikilmək üçün xüsusi otağa verilir;

4.1.4.4. rezident hüquqi şəxsin filialının, nümayəndəliyinin və ya digər bölməsinin, xarici dövlətin rezidentinin Vergi Məcəlləsinin 33.8-ci maddəsinə əsasən uçota alınmış bölməsinin,

fiziki şəxsin vergi uçotu ləğv edilir, onların şəxsi hesab vərəqəsi proqram təminatı ilə avtomatik bağlanılır və onlara uçotdan çıxarılma barədə bu qaydaların 4 №li əlavəsinə uyğun bildiriş göndərilir.

4.1.5. Kommersiya qurumunun, publik hüquqi şəxsin dövlət reyestrindən çıxarılması üçün ləğvetmə komissiyasını (təsviyəçini, ləğvedicini) "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 16.2-ci maddəsinə əsasən tələb olunan sənədlər barədə məlumatlandırır.

4.1.6. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) kommersiya hüquqi şəxsinin, publik hüquqi şəxsin qalıq əmlakının bölünməsindən və ya istifadə edilməsindən sonra 10 gün ərzində aşağıdakı sənədləri qeydiyyat orqanına təhvil verməlidir:

4.1.6.1. ləğvetmə balansı;

4.1.6.2. qalıq əmlakın bölünməsi (istifadə edilməsi) planını əks etdirən hesabatı və həmin əmlakın iştirakçılara təqdim edilməsini təsdiq edən sənəd;

4.1.6.3. kommersiya qurumunun, publik hüquqi şəxsin nizamnaməsinin (əsasnaməsinin) və dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin əsli (təsis sənədləri elektron kabinetə göndərilənlər istisna olmaqla);

4.1.6.4. kommersiya qurumunun, publik hüquqi şəxsin üzərində "ləğv prosesindədir" yazılmış möhürü;

4.1.6.5. kommersiya qurumu 2008-ci il 1 yanvar tarixədək vergi uçotunda dayanmışdırsa, vergi şəhadətnaməsi;

4.1.6.6. səhmdar cəmiyyətlərdə səhmlərin dövriyyədən çıxarılmasına dair Azərbaycan Respublikasının Mərkəzi Bankının (Milli Depozit Mərkəzi) arayışı;

4.1.6.7. ləğv edilən kommersiya qurumunun, publik hüquqi şəxsin qeydiyyat və ya vergi şəhadətnaməsi, nizamnaməsi (əsasnaməsi) və ya üzərində "ləğv prosesindədir" yazılmış möhürü itmişdirsə, bu halda, itmiş sənədin və ya möhürün etibarsız hesab edilməsi barədə mətbuatda dərc edilmiş müvafiq elan;

4.1.6.8. idarəçiliyində olmayan, lakin dövlətin payı olan hüquqi şəxslərə dair müvafiq icra hakimiyyəti orqanı tərəfindən rəy;

4.1.6.9. səhmdar cəmiyyəti ilə bağlı müraciət daxil olduqda əlavə olaraq səhmdar cəmiyyətinin ümumi yığıncağının çağırılması barədə KİV-də verilən elan (QSC istisna olmaqla);

4.1.6.10. səhmdarlara ümumi yığıncağın çağırılması barədə bildirişin çatdırılmasını təsdiq edən sənəd;

4.1.6.11. səhmdarlarla hesablaşmanın aparılmasını təsdiq edən sənədlər;

4.1.6.12. fəaliyyəti nəticəsində yaranmış arxiv sənədlərinin hüquqi şəxsin olduğu yer üzrə müvafiq dövlət arxiv xidməti təşkilatına təhvil verildiyinə dair həmin dövlət arxiv xidməti təşkilatı tərəfindən verilmiş arayış.

4.1.7. Kommersiya qurumu, publik hüquqi şəxs tərəfindən təqdim edilmiş sənədlərin qanunvericiliyə uyğunluğu yoxlanılır, çatışmazlıq aşkar edilmədikdə sənədlərin təhvil alındığı tarixdən 7 gün müddətində qurumun dövlət reyestrindən çıxarılması təmin edilir. Qeyd olunan müddət ərzində aşağıdakı hərəkətlər qeydiyyat orqanı tərəfindən yerinə yetirilməlidir:

4.1.7.1. təhvil alınmış üzərində “ləğv prosesindədir” yazılmış möhür qeydiyyat orqanının ən azı iki əməkdaşı tərəfindən məhv edildikdən sonra bu barədə 2 nüsxədə akt tərtib olunur. Həmin aktın bir nüsxəsi müraciət edən şəxsə verilir, digər nüsxəsi isə qeydiyyat qovluğuna tikilir;

4.1.7.2. kommersiya qurumunun dövlət reyestrindən çıxarılması barədə proqram təminatı ləğv edilən kommersiya qurumuna təqdim edilmək üçün forması Qaydaların 5 №-li əlavəsində verilmiş “Kommersiya qurumunun dövlət reyestrindən çıxarılması haqqında bildiriş”i və 13 №-li əlavəsində verilmiş “Publik hüquqi şəxsin dövlət reyestrindən çıxarılması haqqında bildiriş”i hazırlayır. Bildiriş təsdiq edildikdən sonra “Kommersiya qurumlarının dövlət qeydiyyatı və qeydiyyat məlumatlarında dəyişikliklər barədə sənədlərin təqdim olunması kitabı”nda imza edilməklə qurumun səlahiyyətli şəxsinə təqdim edilir və yaxud poçtla ləğvetmə komissiyasının (təsviyəçi,ləğvedici) yerləşdiyi ünvana göndərilir;

4.1.7.3. kommersiya qurumundan, publik hüquqi şəxsdən təhvil alınmış sənədlər qurumun qeydiyyat qovluğuna tikilmək üçün arxivə verilir.

4.1.8. Kommersiya qurumunun, publik hüquqi şəxsin ləğvi bu barədə qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan başa çatmış, kommersiya qurumunun, publik hüquqi şəxsin mövcudluğuna isə son qoyulmuş sayılır.

4.1.9. Uçotdan çıxarılan kommersiya qurumu olmayan vergi ödəyicisinin şəhadətnaməsi itmişdirsə, bu halda, həmin vergi ödəyicisindən bu barədə yazılı məlumat alınır. Vəfat etmiş və varisi olmayan fiziki şəxsin şəhadətnaməsi tapılmadıqda, onun uçotunun ləğvi üçün şəhadətnamə tələb edilmir.

4.1.10. Vəfat etmiş, yaxud məhkəmənin qərarı ilə ölmüş, itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş hesab edilən fiziki şəxsin varisi müəyyən edilmədikdə, vergi orqanı onun digər təsərrüfat subyekti (obyekti), nəzarət-kassa aparatı, ƏDV qeydiyyatı olduğu halda onların uçotdan çıxarılmasını təmin edən tədbirlər görür.

4.1.11. Qeyri-kommersiya hüquqi şəxsin ləğv edilməsi və onun dövlət reyestrindən çıxarılması barədə qeyri-kommersiya hüquqi şəxslərin dövlət reyestrini aparan orqandan məlumat daxil olduğu gün vergi orqanı həmin məlumatları proqram təminatına daxil edir.

4.1.12. Kommersiya, qeyri-kommersiya hüquqi şəxsləri, publik hüquqi şəxs, rezident hüquqi şəxsin filialı, nümayəndəliyi və ya digər bölməsi, xarici dövlətin rezidentinin Vergi Məcəlləsinin 33.8-ci maddəsinə əsasən uçota alınmış bölməsi ləğv edildikdə, fiziki şəxs isə vəfat etdikdə vergi ödəyicisinə verilmiş VÖEN məlumat bazasında ləğv edilmiş kimi arxivləşdirilir.

4.1.13. Fiziki şəxsin fəaliyyətinə xitam verildikdə ona verilmiş VÖEN məlumat bazasından çıxarılaraq arxivləşdirilir. Həmin fiziki şəxs yenidən fəaliyyətə başlayaraq uçota alınmaq barədə ərizə verdikdə, arxivləşdirilmiş VÖEN məlumat bazasında bərpa olunur.

**4.2. Bəyannamələr strukturu**

4.2.1. Vergi orqanında ləğvetmə və ya uçotdan çıxarılma prosedurlarının yerinə yetirilməsi zamanı Bəyannamə strukturları qanunvericilikdə başqa müddət nəzərdə tutulmamışdırsa 45 gündən gec olmayaraq (vergi ödəyicisinin ləğvetmə və ya uçotdan çıxarılma ilə əlaqədar təqdim etdiyi ərizənin vergi orqanına daxil olduğu və ya həmin ərizədə göstərilən ləğv olunma (fəaliyyətinə xitam verilmə) tarixindən) ləğv edilən və ya uçotdan çıxarılan vergi ödəyicisinin yekun bəyannamələrinin kameral yoxlanılmasını və ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğv edilməsi barədə rəyin verilməsini təmin edir. Bu məqsədlə:

4.2.1.1. ləğvetmə və ya uçotdan çıxarılma barədə müraciətin tarixindən ən geci 3 iş günü ərzində dövlət torpağını icarəyə götürmüş vergi ödəyicilərinin uçotdan çıxarılması barədə məlumatın hazırlanıb müvafiq ərazinin icra hakimiyyəti orqanına göndərilməsini təmin edir;

4.2.1.2. təqdim edilmiş yekun bəyannamələri Vergi Məcəlləsinin və "Kameral vergi yoxlamalarının aparılmasına dair" Qaydalarının tələblərinə uyğun olaraq kameral yoxlayır, bu zaman vergi orqanında olan məlumat bazasından, gömrük əməliyyatları barədə məlumatlardan, vergi ödəyicilərinin qarşılıqlı əlaqələri barədə məlumatlardan, hesablarda aparılmış əməliyyatlar barədə bank əməliyyatı aparan şəxslərdən daxil olmuş məlumatlardan və digər mənbəyi bəlli olan məlumatlardan geniş istifadə edilir. Yekun bəyannamələrin kameral vergi yoxlaması həmin vergi ödəyicisində son səyyar vergi yoxlamasının başlanılması tarixinədək aparılmalıdır;

4.2.1.3. ƏDV-nin məqsədləri üçün qeydiyyatın ləğvi barədə qərar çıxarılması üçün müvafiq rəyi hazırlayır;

4.2.1.4. qanunvericilikdə yekun bəyannamələrin təqdim edilməsi üçün müəyyən edilmiş müddət bitdikdən sonra bəyannamənin alınması üçün vergi orqanında görülmüş tədbirlərin nəticə vermədiyi barədə vergi öhdəliklərinin idarə edilməsi işinin təşkilinə nəzarət strukturundan məlumat daxil olduqda, yekun hesabat dövrləri üzrə vergilərin Vergi Məcəlləsinə uyğun olaraq analoji qaydada hesablanmasını təmin edir;

4.2.1.5. yenidən təşkil nəticəsində ləğv olunan hüquqi şəxsin şəxsi hesab vərəqəsində olan hüquq və öhdəliklərinin təhvil aktına və ya bölünmə balansına uyğun olaraq hüquqi varislik qaydasında digər hüquqi şəxsə (şəxslərə) keçirilməsini təmin edir. Eyni qayda vergi ödəyicilərində aparılan struktur dəyişiklikləri zamanı da tətbiq edilir.

4.2.2. Vergi ödəyicisinin yekun bəyannamələri təqdim edilənədək vergi ödəyicisi tərəfindən ödəyicisi olduğu vergi növləri üzrə müvafiq bəyannamələr qanunvericilikdə nəzərdə tutulmuş hesabat dövrləri üzrə vergi orqanına təqdim edilməlidir. Eyni zamanda, göstərilən dövrdə vergi ödəyicisinin ləğv edilməsi tarixinədək bitməmiş hesabat dövrləri üzrə müvafiq yekun bəyannamələr Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətini dayandırdığı tarixdən və yaxud ləğv edilmə haqqında qərarda göstərilən ləğv olunma tarixindən (qeyri-rezidentin daimi nümayəndəliyi üçün bu tarix göstərilmədikdə qərarın Azərbaycan Respublikasının xarici dövlətlərdəki nümayəndəliklərinin leqallaşdırdığı tarixdən) 30 gün müddətində (sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) təqdim edilməlidir. Yekun mənfəət və ya gəlir vergisi bəyannaməsinin hesabat dövrü vergi ilinin əvvəlindən sahibkarlıq fəaliyyətinin dayandırıldığı günə qədər olan dövrü əhatə edir.

4.2.3. Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən ödəyicinin ləğv edilməsi tarixinədək bitməmiş hesabat dövrləri üzrə yekun bəyannamələri Vergi Məcəlləsində müəyyən edilmiş müddətdən gec olmamaq şərti ilə vergi orqanına təqdim edilməlidir.

**4.3. Vergi öhdəliklərinin idarə edilməsinə nəzarət strukturu**

4.3.1. Vergi orqanında ləğvetmə və ya uçotdan çıxarılma prosedurlarının yerinə yetirilməsi zamanı Vergi borcları strukturları tərəfindən qanunvericilikdə başqa müddət nəzərdə tutulmamışdırsa 45 gündən gec olmayaraq aşağıdakı tədbirlər görülür:

4.3.1.1. ləğv edilən və ya uçotdan çıxarılan vergi ödəyicisinin vaxtında təqdim edilməmiş bəyannamələrinin, o cümlədən yekun bəyannamələrinin alınması üzrə qanunvericilikdə müəyyən edilmiş hərəkətlərin yerinə yetirilməsi;

4.3.1.2. ləğv edilən və ya uçotdan çıxarılan vergi ödəyicisinin vaxtında ödənilməmiş borclarının alınması üzrə qanunvericilikdə müəyyən edilmiş hərəkətlərin yerinə yetirilməsi;

4.3.1.3. ləğv edilən və ya uçotdan çıxarılan vergi ödəyicisi tərəfindən yekun bəyannamələr təqdim edilmədikdə və bəyannamələrinin alınması üzrə qanunvericilikdə müəyyən edilmiş hərəkətlər nəticə vermədikdə aidiyyəti üzrə tədbirlərin görülməsi üçün bu barədə Bəyannamələr strukturlarına məlumatın verilməsi;

4.3.1.4. ləğv edilən və ya uçotdan çıxarılan vergi ödəyicilərinin vergilər, faizlər və maliyyə sanksiyaları üzrə ümidsiz borcları üzrə Vergi Məcəlləsinin 93-cü maddəsinin müddəalarına uyğun olaraq tədbirlərin görülməsi.

4.3.2. Ləğv edilən hüquqi şəxsin vergi öhdəlikləri onun pul, xarici valyuta vəsaitləri və əmlakının satışından daxil olan vəsait hesabına tam həcmdə yerinə yetirilir. Bu vəsaitlər vergi öhdəliklərinin yerinə yetirilməsi üçün kifayət etmədikdə, hüquqi şəxsin nizamnaməsinə və ya digər təsis sənədinə əsasən məsuliyyət daşıdıqları təqdirdə, qalan borc təsisçilər (iştirakçılar) tərəfindən ödənilir. Hüquqi şəxs iflas prosesinə məruz qaldıqda, vergi öhdəlikləri qanunla müəyyən edilmiş növbəlilik qaydasında yerinə yetirilir.

4.3.3. Vəfat etmiş və ya Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ölmüş hesab edilmiş fiziki şəxsin əmlak vergiləri üzrə vergi öhdəliklərini onun varisi (varisləri) miras qalan əmlakın dəyəri hüdudlarında və mirasın alındığı tarixdəki payına mütənasib şəkildə ödəyirlər. Vərəsəlik şəhadətnaməsi notariat orqanı tərəfindən vərəsələrə mirasın açıldığı gündən altı ay keçdikdən sonra istənilən vaxt verilir. Əgər notariat orqanında şəhadətnamə tələb edən şəxslərdən savayı, başqa vərəsələrin olmadığı barədə məlumat vardırsa, vərəsəlik şəhadətnaməsi altı aydan da tez müddətdə verilə bilər.

4.3.4. Məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayılan fiziki şəxsin vergi öhdəliklərini itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş şəxsin əmlak sərəncamçısı kimi səlahiyyətləndirilən şəxs həmin əmlakın hesabına ödəyir.

**4.4. Vergi auditi strukturu**

4.4.1. Vergi orqanında ləğvetmə və ya uçotdan çıxarılma prosedurlarının yerinə yetirilməsi zamanı vergi borcu olmayan vergi ödəyiciləri üzrə qanunvericilikdə başqa müddət nəzərdə tutulmamışdırsa, vergi auditi strukturları tərəfindən aşağıda qeyd edilən tarixlərin ən gecindən 30 gün ərzində Vergi Məcəlləsinin 38.3.8-ci maddəsinə əsasən son səyyar vergi yoxlaması aparılmalıdır:

4.4.1.1. vergi ödəyicisinin ləğvetmə və ya uçotdan çıxarılma ilə əlaqədar təqdim etdiyi ərizənin vergi orqanına daxil olduğu və ya həmin ərizədə göstərilən ləğv olunma (fəaliyyətinə xitam verilmə) tarixindən;

4.4.1.2. aktiv uçot vahidlərinin bağlanması, qeydiyyatdan çıxarılması (ləğvetmə prosedurlarının yerinə yetirilməsi zamanı hesablaşmaların aparılması üçün istifadə olunacaq bank hesabı (hesabları) istisna olmaqla) tarixindən;

4.4.1.3. mükəlləf olduğu vergi və ödənişlər üzrə (ləğv və cari) bəyannamə və hesabatların (sadələşdirilmiş vergi ödəyiciləri üzrə vergi bəyannamələrinin təqdim edilmə müddəti nəzərə alınmaqla) təqdim edilməsi və kameral qaydada yoxlaması başa çatdırıldığı tarixdən.

4.4.2. Vergidən yayınma riskləri müəyyən edildiyi hallarda səyyar vergi yoxlaması yuxarıda göstərilən tələblər və müddətlər gözlənilmədən həyata keçirilə bilər. Bu halda aktiv uçot vahidlərinin bağlanması bu yoxlama ilə təmin edilməlidir.

4.4.3. Son səyyar vergi yoxlaması, o cümlədən yoxlanılmış dövrün yenidən yoxlanılması üçün təyin edilə bilər.

4.4.4. Yenidən təşkil zamanı səyyar vergi yoxlamasının keçirilməsi Vergi Məcəlləsinin 147-ci maddəsinə uyğun olaraq vergidən yayınma halının olub-olmamasının müəyyən edilməsi məqsədilə həyata keçirilə bilər.

4.4.5. Ləğv edilmə və uçotdan çıxarılma barədə müraciət etmiş vergi ödəyicisi üzrə vergidən yayınma riskləri müəyyən edilmədikdə, audit strukturu son səyyar vergi yoxlamasının təyin edilməsi üçün qərar verməyə bilər. Bu zaman vergi ödəyicisinin qeydiyyatının səyyar vergi yoxlaması aparılmadan ləğv edilməsi barədə məlumat yuxarıda göstərilən müddətlər nəzərə alınmaqla qeydiyyat və uçot strukturlarına ötürülməlidir.

4.4.6. Vergi ödəyicisində aparılmış son səyyar vergi yoxlamasının nəticəsinə görə yaranmış vergi öhdəlikliklərinin yerinə yetirilməsi məqsədi ilə audit strukturları tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülməlidir.

4.4.7. Son vergi yoxlaması səyyar vergi yoxlamasının aparılması üzrə Dövlət Vergi Xidməti tərəfindən müəyyən edilmiş qaydalara müvafiq olaraq aparılır, bu zaman son yoxlama əlavə olaraq aşağıda göstərilən, lakin bununla məhdudlaşdırılmayan məsələlərin əhatə edilməsini təmin edir:

4.4.7.1. vergi ödəyicisinin debitor və kreditor borclarının müəyyənləşdirilməsi ilə onun vergitutma obyektlərinin və vergi öhdəliyinin dəqiqləşdirilməsi;

4.4.7.2. ləğv edilən qeyri-kommersiya təşkilatlarının (ictimai birlik, fond və ya ittifaq) əmlakının onların nizamnaməsində göstərilmiş məqsədlərə yönəltmək mümkün olmayan hallarda həmin əmlakın dövlət büdcəsinə yönəldilməsinin nəzərə alınması;

4.4.7.3. istifadə edilməmiş ciddi hesabat blanklarının məhv edilməsi üçün vergi ödəyicisi tərəfindən aidiyyəti üzrə müraciətlərin edilməsi barədə tədbirlərin görülməsi.

## 5. Yekun müddəalar

5.1. Kommersiya qurumunun və publik hüquqi şəxsin ləğv və ya yenidən təşkillə əlaqədar təqdim etdiyi sənədlərdə çatışmazlıqlar aşkar edildiyi halda "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən kommersiya qurumunun dövlət reyestrindən çıxarılmasından imtina edilir.

5.2. Vergi ödəyicilərinin vergi uçotundan çıxarılması ilə əlaqədar sənədlər qanunvericiliyə və bu Qaydalara uyğun olaraq təqdim edilmədikdə, həmin sənədlər aşkar

edilmiş çatışmazlıqlar barədə hazırlanmış məktubla birlikdə vergi ödəyicisinə təqdim edilir (göndərilir).

5.3. Kommersiya qurumunun və publik hüquqi şəxsin ləğvi və ya yenidən təşkil faktlarının dövlət qeydiyyatına alınmasından verilmiş imtinadan və vergi ödəyicilərinin vergi uçotundan çıxarılması barədə təqdim edilmiş ərizələrdə aşkar edilmiş çatışmazlıqlarla əlaqədar göndərilmiş məktubdan yuxarı orqana və ya məhkəməyə şikayət verilə bilər.

**Əlavə № 1**

________________________________________________________________________

(kommersiya qurumunun adı və VÖEN-i)

**Kommersiya qurumu dövlət reyestrindən çıxarılanadək yerinə yetirilməli olan prosedurlar haqqında**

**BİLDİRİŞ**

____________________________________ (qeydiyyat orqanının adı)          ______________________ (tarix)

Dövlət qeydiyyatının ləğv edilməsi barədə ərizə qeydiyyat orqanında ______________________________ nömrə ilə qeydə alınmışdır. Ərizə qeydiyyata alınan tarixə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumat bazasında qurumun aşağıdakı məlumatları (öhdəlikləri) vardır:

1. Qurumun filialı (nümayəndəliyi)- vergi kodu, ünvanı, qeydiyyat tarixi, uçota alan vergi orqanı;
2. Qurumun təsərrüfat subyekti (obyekti)- vergi kodu, ünvanı, qeydiyyat tarixi, uçota alan vergi orqanı;
3. Qurumun nəzarət-kassa aparatları-markası, zavod nömrəsi, qeydiyyat tarixi, qeydiyyatı aparan vergi orqanı;
4. Qurumun pos-terminalları - qeydiyyat tarixi və nömrəsi, qeydiyyatı aparan vergi orqanı;
5. ƏDV-nin məqsədləri üçün qeydiyyat- bildirişin nömrəsi, qeydiyyat tarixi;
6. Bank hesabları- nömrəsi, valyutası, açıldığı tarix və açıldığı bank əməliyyatı aparan şəxsin adı;
7. Cəmi borcu- ərizə verildiyi tarixə şəxsi-hesab vərəqəsində olan cəmi borc;
8. Vaxtında təqdim edilməmiş bəyannamələr- dövrü göstərilməklə.
9. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində qüvvədə olan aktiv əmək müqavilələri.

Ləğvetmə prosedurları çərçivəsində yuxarıda göstərilən obyektlərin qeydiyyatı (uçotu) və qurumun ləğvetmə prosedurlarının yerinə yetirilməsi zamanı hesablaşmaların aparılması

üçün istifadə edilən hesabdan (hesablardan) başqa, digər bank hesabları son səyyar vergi yoxlaması başlayanadək bağlanılmalıdır (ləğv edilməlidir).

Qeyd olunan prosedurların tərəfinizdən yerinə yetirilməməsi təqdim etdiyiniz ərizənin icrasının gecikməsinə səbəb olacaqdır. Belə ki, Mülki Məcəllənin 59.6-cı maddəsinə əsasən ləğvetmə prosesinin ümumi müddəti hüquqi şəxsin ləğv edilməsi barədə məlumatın hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan etibarən bir ildən çox olmamalıdır. Həmin müddətin keçməsi ləğvetmə prosesinin yenidən başlamasına səbəb olur.

Kommersiya qurumunun ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) tərəfindən Vergi Məcəlləsində göstərilən müddətlərdə vergi orqanına aşağıdakı bəyannamələr təqdim edilməlidir:

1.

2

3

...

Son səyyar vergi yoxlamasının aparılması başa çatdıqdan sonra borcları və dövlət orqanları və təşkilatlar qarşısında digər öhdəliklər tam yerinə yetirilməlidir. Qalıq əmlakın təsdiq edilmiş bölünmə planına uyğun olaraq hüquqi şəxsin iştirakçılarına təqdim edilməsi yekunlaşdırıldıqdan sonra 10 gün ərzində qeydiyyat şəhadətnaməsinin və nizamnaməsinin əslini, üzərində "ləğv prosesindədir" yazılmış möhürü, qalıq əmlakın bölünməsi (istifadə edilməsi) planını əks etdirən hesabatı və həmin əmlakın iştirakçılara təqdim edilməsini təsdiq edən sənədi, səhmdar cəmiyyətlər üzrə səhmlərin dövriyyədən çıxarılmasına dair Azərbaycan Respublikasının Mərkəzi Bankının (Milli Depozit Mərkəzi) arayışını, fəaliyyəti nəticəsində yaranmış arxiv sənədlərinin hüquqi şəxsin olduğu yer üzrə müvafiq dövlət arxiv xidməti təşkilatına təhvil verildiyinə dair həmin dövlət arxiv xidməti təşkilatı tərəfindən verilmiş arayışı və ləğvetmə balansını qeydiyyat orqanına təqdim etməlisiniz.

**Qeydiyyat orqanının məsul**

**vəzifəli şəxsi** ____________________ ____________________

(imza) ( soyadı və adı)

**Əlavə № 2**

______________________________________________________________________

(kommersiya qurumunun adı və VÖEN-i)

**Vergi ödəyicisi uçotdan (VÖEN ləğv olunanadək) çıxarılanadək yerinə yetirilməli olan prosedurlar haqqında**

**BİLDİRİŞ**

______________________________ (qeydiyyat orqanının adı)

______________________ (tarix)

Vergi uçotunun ləğv edilməsi barədə ərizə vergi orqanında ____________________________ nömrə ilə qeydə alınmışdır. Ərizə qeydiyyata alınan tarixə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumat bazasında vergi ödəyicinin aşağıdakı məlumatları (öhdəlikləri) vardır:

1. Vergi ödəyicisinin filialı (nümayəndəliyi)- vergi kodu, ünvanı, qeydiyyat tarixi, uçota alan vergi orqanı;
2. Vergi ödəyicisinin təsərrüfat subyekti (obyekti)- vergi kodu, ünvanı, qeydiyyat tarixi, uçota alan vergi orqanı;
3. Vergi ödəyicisinin nəzarət-kassa aparatları-markası, zavod nömrəsi, qeydiyyat tarixi, qeydiyyatı aparan vergi orqanı;
4. Qurumun pos-terminalları - qeydiyyat tarixi və nömrəsi, qeydiyyatı aparan vergi orqanı;
5. ƏDV-nin məqsədləri üçün qeydiyyat- bildirişin nömrəsi, qeydiyyat tarixi;
6. Bank hesabları- nömrəsi, valyutası, açıldığı tarix və açıldığı bank əməliyyatı aparan şəxsin adı;
7. Cəmi borcu- ərizə verildiyi tarixə şəxsi-hesab vərəqəsində olan cəmi borc;
8. Vaxtında təqdim edilməmiş bəyannamələr- dövrü göstərilməklə.
9. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində qüvvədə olan aktiv əmək müqavilələri.

Ləğvetmə prosedurları çərçivəsində yuxarıda göstərilən uçot obyektlərinin qeydiyyatı (uçotu) və vergi ödəyicisinin ləğvetmə prosedurlarının yerinə yetirilməsi zamanı

hesablaşmaların aparılması üçün istifadə edilən hesabdan (hesablardan) başqa, digər bank hesabları son səyyar vergi yoxlaması başlayanadək bağlanılmalıdır (ləğv edilməlidir).

Qeyd olunan prosedurların tərəfinizdən yerinə yetirilməməsi təqdim etdiyiniz ərizənin icrasının gecikməsinə səbəb olacaqdır.

Vergi ödəyicisi tərəfindən Vergi Məcəlləsində göstərilən müddətlərdə vergi orqanına aşağıdakı bəyannamələr təqdim edilməlidir:

1.

2

3

...

**Vergi orqanının məsul**

**vəzifəli şəxsi**

| | |
|---|---|
| ____________________ | ____________________ |
| (imza) | ( soyadı və adı) |

**Əlavə № 3**

**Qeyri-kommersiya qurumunun ləğv edilməsi ilə əlaqədar olaraq vergi orqanı tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi və qurumun büdcə qarşısında öhdəliklərinin yerinə yetirilməsi barədə**

**MƏLUMAT**

Təqdim edilir: ______________________________________________
(qeyri-kommersiya hüquqi şəxsin dövlət qeydiyyatını aparan orqanın adı)
______________________________________________

Təqdim edir:______________________________________________
(məlumatı təqdim edən vergi orqanının adı)

______________________________________________

Bildiririk ki,
______________________________________________
(qeyri-kommersiya qurumunun tam adı və VÖEN-i)

ləğv edilməsi ilə əlaqədar olaraq vergi orqanı tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər yerinə yetirilmiş və həmin qurum tərəfindən vergi öhdəliklərinin tam yerinə yetirilməsi təmin edilmişdir. Qeyri-kommersiya qurumunun dövlət qeydiyyatının ləğv edilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görüb onun dövlət reyestrindən çıxarılması barədə vergi orqanına məlumat verməyinizi xahiş edirik.

Vergi orqanının rəhbəri ______________ ______________________
(imza) (adı və soyadı)

Əlavə № 4

## Vergi ödəyicisinin uçotdan çıxarılması haqqında

### B İ L D İ R İ Ş №____________

________________________________________________________________________
(vergi orqanının adı)

bildirir ki, «___»__________20___-ci il tarixdə _____________________ nömrəli

VÖEN ilə vergi uçotuna alınmış __________________________________________

__________________________________________________________________
(vergi ödəyicisinin adı)

«___»_____________20___-ci il tarixdə vergi uçotu ləğv edilmişdir.

_______________rəisi (rəis müavini) ___________________ ___________________
vergi orqanının adı imza soyadı və adı

**Əlavə № 5**

**Kommersiya qurumunun dövlət reyestrindən çıxarılması haqqında**

**B İ L D İ R İ Ş №____________**

________________________________________________________________________

(qeydiyyat orqanının adı)

bildirir ki, «___»_______________20___-ci il tarixdə ___________________ _

№ ilə (VÖEN № _______________________________________ ) dövlət qeydiyyatına

alınmış ____________________________________________________________________

(kommersiya qurumunun adı)

«___»_______________20___-ci il tarixdə ləğv edilmiş və həmin qurum Azərbaycan Respublikası kommersiya hüquqi şəxslərinin dövlət reyestrindən çıxarılmışdır.

_______________rəisi (rəis müavini) ________________________ ____________________

qeydiyyat orqanının adı imza soyadı və adı

**Əlavə № 6**

**Q Ə R A R №**

**Kommersiya qurumunun ləğvetmə ərizəsinin qəbul edilməsindən imtina haqqında**

________________________
qərarın qəbul edildiyi tarix

Mən ________________________________________________________________
qərarı qəbul edən şəxsin vəzifəsi, rütbəsi, adı, soyadı, atasının adı,

____________________________________________________________________
müraciət etmiş fiziki şəxsin adı, atasının adı, soyadı, ünvanı göstərilir

____________________________________________________________________

____________________________________________________________________
qurumun adı, hüquqi ünvanı, VÖEN-i

ləğv olunması barədə __________________________________________________
ərizənin tarixi göstərilir

müraciətinə baxaraq

**M Ü Ə Y Y Ə N   E T D İ M**

____________________________________________________________________
müraciət edən şəxsin adı, soyadı, ərizənin tarixi qeyd olunur

tarixli ərizəsində ________________________________________________________
qurumun adı

______________________________________ləğv olunma prosesində olması barədə qeydin dövlət reyestrinə daxil edilməsini xahiş etmişdir.

Lakin təqdim edilən sənədlər araşdırılmaqla belə nəticəyə gəlinmişdir ki,

____________________________________________________________________
qurumun adı

ləğvolunma ilə əlaqədar təqdim etdiyi ərizəsi və ona əlavə olunmuş qanunvericilikdə nəzərdə tutulmuş sənədləri geri qaytarılmalı, qurumun ləğv prosesində olması barədə qeyd dövlət reyestrinə daxil edilməməlidir.

Belə ki, ____________________________________________________________

Lakin, təqdim edilmiş sənədlərdən görünür ki,

____________________________________________________________________
qurumun adı

Yuxarıda qeyd olunanlara əsasən

**Q Ə R A R A   A L I R A M**

____________________________________________________________________
müraciət edən qurumun adı

ləğv olunması ilə əlaqədar təqdim edilmiş ərizə və ona əlavə olunmuş sənədlər geri qaytarılsın, qurumun ləğv prosesində olması barədə qeydin dövlət reyestrinə daxil edilməsindən imtina edilsin.

Qərardan bu qərarın alındığı vaxtdan 30 gün müddətində birbaşa və ya bu qərarı qəbul etmiş orqan vasitəsilə yuxarı vergi orqanına və ya məhkəməyə şikayət verilə bilər.

_________________rəisi (rəis müavini) _______________ __________________

qeydiyyat orqanının adı imza (soyadı və adı)

**Əlavə № 7**

**Kommersiya qurumunun ləğvetmə prosesinin yenidən başlamasına dair**

**B İ L D İ R İ Ş №____________**

_____________________________________________________________________________

(qeydiyyat orqanının adı)

bildirir ki, «___»_______________20___-ci il tarixdə ____________________________№ ilə (VÖEN:________________ ) Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış

_____________________________________________________________________________

(kommersiya qurumunun adı)

barədə ləğv prosesinin başlanması üçün təqdim etdiyiniz ərizə və qanunvericilikdə nəzərdə tutulmuş sənədlər əsasında qurumun ləğv prosesində olması barədə məlumat «___»_______________20___-ci il tarixdə hüquqi şəxslərin dövlət reyestrinə daxil edilmişdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 59.6-cı maddəsinin tələblərinə əsasən ləğvetmə prosesinin ümumi müddəti hüquqi şəxsin ləğvetmə prosesində olması barədə məlumatın hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan etibarən bir ildən çox olmamalıdır. Həmin müddətin keçməsi ləğvetmə prosesinin yenidən başlamasına səbəb olur.

Bildiririk ki,

_____________________________________________________________________________

(kommersiya qurumunun adı)

ləğv edilmə prosedurları qanunvericiliklə müəyyən edilmiş 1 il müddətində başa çatdırılmadığından qurumun ləğv prosesində olması barədə qeyd hüquqi şəxslərin dövlət reyestrindən çıxarılmışdır. Bununla əlaqədar olaraq Sizin tərəfinizdən qurumun ləğvetmə prosedurlarına yenidən başlanılması üçün qeydiyyat orqanına müraciət edilməlidir.

_________________rəisi (rəis müavini) ______________ _________________

qeydiyyat orqanının adı imza (soyadı və adı)

**Əlavə № 8**

______________________________________________________________________________
(publik hüquqi şəxsin adı və VÖEN-i)

**Publik hüquqi şəxsin dövlət reyestrindən çıxarılanadək yerinə yetirilməli olan prosedurlar haqqında**

**BİLDİRİŞ**

________________________________________ ________________________
(qeydiyyat orqanının adı) (tarix)

Dövlət qeydiyyatının ləğv edilməsi barədə ərizə qeydiyyat orqanında ____________________________ nömrə ilə qeydə alınmışdır. Ərizə qeydiyyata alınan tarixə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumat bazasında publik hüquqi şəxsin aşağıdakı məlumatları (öhdəlikləri) vardır:

1. **Publik hüquqi şəxsin** filialı (nümayəndəliyi)- vergi kodu, ünvanı, qeydiyyat tarixi, uçota alan vergi orqanı;
2. **Publik hüquqi şəxsin** təsərrüfat subyekti (obyekti)- vergi kodu, ünvanı, qeydiyyat tarixi, uçota alan vergi orqanı;
3. **Publik hüquqi şəxsin** nəzarət-kassa aparatları- markası, zavod nömrəsi, qeydiyyat tarixi, qeydiyyatı aparan vergi orqanı;
4. **Publik hüquqi şəxsin** pos-terminalları - qeydiyyat tarixi və nömrəsi, qeydiyyatı aparan vergi orqanı;
5. ƏDV-nin məqsədləri üçün qeydiyyat- bildirişin nömrəsi, qeydiyyat tarixi;
6. Bank hesabları- nömrəsi, valyutası, açıldığı tarix və açıldığı bank əməliyyatı aparan şəxsin adı;
7. Cəmi borcu- ərizə verildiyi tarixə şəxsi-hesab vərəqəsində olan cəmi borc;
8. Vaxtında təqdim edilməmiş bəyannamələr- dövrü göstərilməklə.
9. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində qüvvədə olan aktiv əmək müqavilələri.

Ləğvetmə prosedurları çərçivəsində yuxarıda göstərilən obyektlərin qeydiyyatı (uçotu) və **publik hüquqi şəxsin** ləğvetmə prosedurlarının yerinə yetirilməsi zamanı hesablaşmaların aparılması üçün istifadə edilən hesabdan başqa, digər bank hesabları son səyyar vergi yoxlaması başlayanadək bağlanılmalıdır (ləğv edilməlidir).

Qeyd olunan prosedurların tərəfinizdən yerinə yetirilməməsi təqdim etdiyiniz ərizənin icrasının gecikməsinə səbəb olacaqdır. Belə ki, Mülki Məcəllənin 59.6-cı maddəsinə əsasən ləğvetmə prosesinin ümumi müddəti hüquqi şəxsin ləğv edilməsi barədə məlumatın hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan etibarən bir ildən çox olmamalıdır. Həmin müddətin keçməsi ləğvetmə prosesinin yenidən başlamasına səbəb olur.

**Publik hüquqi şəxsin** ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) tərəfindən Vergi Məcəlləsində göstərilən müddətlərdə vergi orqanına aşağıdakı bəyannamələr təqdim edilməlidir:

1.

2

3

...

Son səyyar vergi yoxlamasının aparılması başa çatdıqdan sonra vergi borcları və dövlət orqanları və təşkilatlar qarşısında digər öhdəliklər tam yerinə yetirilməlidir. Qalıq əmlakın təsdiq edilmiş bölünmə planına uyğun olaraq hüquqi şəxsin iştirakçılarına təqdim edilməsi yekunlaşdırıldıqdan sonra 10 gün ərzində qeydiyyat şəhadətnaməsinin və nizamnaməsinin əslini, üzərində "ləğv prosesindədir" yazılmış möhürü, qalıq əmlakın bölünməsi (istifadə edilməsi) planını əks etdirən hesabatı və həmin əmlakın iştirakçılara təqdim edilməsini təsdiq edən sənədi, fəaliyyəti nəticəsində yaranmış arxiv sənədlərinin hüquqi şəxsin olduğu yer üzrə müvafiq dövlət arxiv xidməti təşkilatına təhvil verildiyinə dair həmin dövlət arxiv xidməti təşkilatı tərəfindən verilmiş arayışı və ləğvetmə balansını qeydiyyat orqanına təqdim etməlisiniz.

**Qeydiyyat orqanının məsul vəzifəli şəxsi**

| | |
|---|---|
| ____________________ | ____________________ |
| (imza) | ( soyadı və adı) |

**Əlavə № 9**

**Publik hüquqi şəxsin dövlət reyestrindən çıxarılması haqqında**

**B İ L D İ R İ Ş №____________**

_______________________________________________________________________________

(qeydiyyat orqanının adı)

bildirir ki, «___»_______________20___-ci il tarixdə ___________________ № ilə (VÖEN: ______________) dövlət qeydiyyatına alınmış _______________________________________
_______________________________________________________________________________

(publik hüquqi şəxsin adı)

«___»_______________20___-ci il tarixdə ləğv edilmiş və həmin publik hüquqi şəxs Azərbaycan Respublikası hüquqi şəxslərinin dövlət reyestrindən çıxarılmışdır.

_______________rəisi (rəis müavini) ___________________ ____________________

qeydiyyat orqanının adı imza soyadı və adı

**Əlavə № 10**

# Q Ə R A R №

## Publik hüquqi şəxsin ləğvetmə ərizəsinin qəbul edilməsindən imtina haqqında

________________________
qərarın qəbul edildiyi tarix

Mən __________________________________________________________________
qərarı qəbul edən şəxsin vəzifəsi, rütbəsi, adı, soyadı, atasının adı,

______________________________________________________________________
müraciət etmiş fiziki şəxsin adı, atasının adı, soyadı, ünvanı göstərilir

______________________________________________________________________

______________________________________________________________________
publik hüquqi şəxsin adı, hüquqi ünvanı, VÖEN-i

ləğv olunması barədə

______________________________________________________________________
ərizənin tarixi göstərilir

müraciətinə baxaraq

### M Ü Ə Y Y Ə N  E T D İ M

______________________________________________________________________
müraciət edən şəxsin adı, soyadı, ərizənin tarixi qeyd olunur

tarixli ərizəsində ________________________________________________________
qurumun adı

______________________________________ləğv olunma prosesində olması barədə qeydin dövlət reyestrinə daxil edilməsini xahiş etmişdir.

Lakin təqdim edilən sənədlər araşdırılmaqla belə nəticəyə gəlinmişdir ki,

______________________________________________________________________
qurumun adı

ləğvolunma ilə əlaqədar təqdim etdiyi ərizəsi və ona əlavə olunmuş qanunvericilikdə nəzərdə tutulmuş sənədləri geri qaytarılmalı, publik hüquqi şəxsin ləğv prosesində olması barədə qeyd dövlət reyestrinə daxil edilməməlidir.

Belə ki, ______________________________________________________________

Lakin təqdim edilmiş sənədlərdən görünür ki, ___________________________________

______________________________________________________________________
qurumun adı

______________________________________________________________________

Yuxarıda qeyd olunanlara əsasən

### Q Ə R A R A  A L I R A M

______________________________________________________________________
müraciət edən publik hüquqi şəxsin adı

ləğv olunması ilə əlaqədar təqdim edilmiş ərizə və ona əlavə olunmuş sənədlər geri qaytarılsın, publik hüquqi şəxsin ləğv prosesində olması barədə qeydin dövlət reyestrinə daxil edilməsindən imtina edilsin.

Qərardan  bu qərarın alındığı vaxtdan 30 gün müddətində birbaşa və ya bu qərarı qəbul etmiş orqan vasitəsilə yuxarı vergi orqanına və ya məhkəməyə şikayət verilə bilər.

____________________rəisi (rəis müavini)  __________________  __________________
qeydiyyat  orqanının adı  imza  (soyadı və adı)

**Əlavə № 11**

**Publik hüquqi şəxsin ləğvetmə prosesinin yenidən başlamasına dair**

**B İ L D İ R İ Ş №____________**

________________________________________________________________________
(qeydiyyat orqanının adı)

bildirir ki, «___»_______________20___-ci il tarixdə ____________________________№ ilə

(VÖEN:_________________) Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış

________________________________________________________________________
(publik hüquqi şəxsin adı)

barədə ləğv prosesinin başlanması üçün təqdim etdiyiniz ərizə və qanunvericilikdə nəzərdə tutulmuş sənədlər əsasında publik hüquqi şəxsin ləğv prosesində olması barədə məlumat «___»_______________20___-ci il tarixdə hüquqi şəxslərin dövlət reyestrinə daxil edilmişdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 59.6-cı maddəsinin tələblərinə əsasən ləğvetmə prosesinin ümumi müddəti hüquqi şəxsin ləğvetmə prosesində olması barədə məlumatın hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan etibarən bir ildən çox olmamalıdır. Həmin müddətin keçməsi ləğvetmə prosesinin yenidən başlamasına səbəb olur.

Bildiririk ki,

________________________________________________________________________
(publik hüquqi şəxsin adı)

ləğv edilmə prosedurları qanunvericiliklə müəyyən edilmiş 1 il müddətində başa çatdırılmadığından publik hüquqi şəxsin ləğv prosesində olması barədə qeyd hüquqi şəxslərin dövlət reyestrindən çıxarılmışdır. Bununla əlaqədar olaraq Sizin tərəfinizdən publik hüquqi şəxsin ləğvetmə prosedurlarına yenidən başlanılması üçün qeydiyyat orqanına müraciət edilməlidir.

__________________rəisi (rəis müavini) ______________ _________________
qeydiyyat orqanının adı imza (soyadı və adı)